# “Təfəkkür” universitetində qış imtahanları başa çatdı

Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetində 2018 – 2019 - cu tədris ilinin qış imtahan sessiyası başa çatmışdır. Əvvəlki illərdə olduğu kimi bu sessiyada da imtahanlar yazılı formada keçirilmiş və şifrələnmişdir. Bütün imtahanlarda valideynlərin iştirakına şərait yaradılmışdır. İmtahanların gedişində ortaya çıxa biləcək problemləri dərhal həll etmək üçün rektorun əmri ilə yaradılmış Apelyasiya komissiyasına və “Qaynar xəttə” daxil olan müraciətlər elə həmin gün həll olunmuşdur. İmtahanların gedişindən və aldıqları qiymətlərdən narazı qalan tələbələrin müraciətlərinin nəticələrinə rektor şəxsən özü nəzarət etmişdir.

Bütün imtahanlar vaxtında keçirilmiş, nəticələri nəzərdə tutulan vaxtda elan olunmuşdur. Tələbələrə biliklərini nümayiş etdirmək üçün hər cür şərait yaradılmışdır.

**05.02.2019**